## "Azərbaycan Respublikasının Hökuməti ilə Moldova Respublikasının Hökuməti arasında bitkilərin karantini sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır**:

"Azərbaycan Respublikasının Hökuməti ilə Moldova Respublikasının Hökuməti arasında bitkilərin karantini sahəsində əməkdaşlıq haqqında" 2004-cü il oktyabrın 26-da Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 dekabr 2004-cü il
№ 811-IIQ

### Azərbaycan Respublikasının Hökuməti ilə Moldova Respublikasının Hökuməti arasında bitkilərin karantini sahəsində əməkdaşlıq haqqında

## SAZİŞ

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Hökuməti və Moldova Respublikasının Hökuməti, karantin obyektlərinin daxil olmasının və yayılmasının qarşısının alınması sahəsində əməkdaşlığın əhəmiyyətini etiraf edərək,

bitkilərin karantini sahəsində əməkdaşlığı davam etdirmək, genişləndirmək və dövlət karantin tədbirlərinin əlaqələndirilməsini təmin etmək istəyini rəhbər tutaraq,

Tərəflər arasında təsərrüfat əlaqələrinin inkişafı və kommersiya kontraktları həyata keçirilərkən öz dövlətlərinin ərazilərinin karantin obyektlərinin daxil olmasından və yayılmasından qorunması maraqlarından çıxış edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Sazişin həyata keçirilməsi və fəaliyyətinin əlaqələndirilməsi üçün Tərəflərin səlahiyyətli orqanları:

Azərbaycan Respublikası Tərəfindən - Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi

Moldova Respublikası Tərəfindən - Moldova Respublikası Baş Dövlət fitosanitariya karantini üzrə müfəttişliyi

Maddə 2

Tərəflər milli qanunvericilikdə müəyyən olunmuş qaydada, karantin nəzarətində olan materialların bir dövlətin ərazisindən o biri dövlətin ərazisinə daşınması zamanı bitki karantini sahəsində bütün lazımi tədbirləri milli qanun-vericiliklə təyin olunmuş yerlərdə,

bu Sazişin ayrılmaz hissəsi olan Əlavədəki karantin obyektlərinin siyahısına uyğun olaraq həyata keçiriləcəkdir.

Karantin nəzarətinin materialları - karantin obyektini yaya bilən və onun yayılmasına kömək edən hər hansı bir materialdır (toxum, əkin materialı, bitki və onun hissələri, digər bitki mənşəli məhsul, trikotaj, tekstil və dəri-gön sənayesi üçün xammal).

Karantin nəzarətində olan materialların karantin yoxlanmasına çəkilən xərclər yük sahibi tərəfindən Tərəflərin dövlətinin ərazisində mövcud tariflərə uyğun ödənilir.

Maddə 3

Tərəflər bir ölkədən digərinə göndərilən karantin materiallarının idxalı, ixracı və tranziti zamanı Tərəflərin qüvvədə olan qanunvericiliyinə müvafiq olaraq təsdiq olunmuş fitosanitar qaydalarına riayət etməyi öhdələrinə götürürlər.

Maddə 4

Tərəflər bitki karantini sahəsində səmərəli əməkdaşlıq etmək məqsədilə aşağıdakı öhdəlikləri götürürlər:

- karantin nəzarətində olan materialların idxal, ixrac və tranziti zamanı karantin obyektlərinin bir Tərəfin dövlətinin ərazisindən o biri Tərəfin dövlətinin ərazisinə keçməsinin qarşısını almaq məqsədilə lazımi tədbirlərin görülməsini;
- Tərəflərin dövlətlərinin ərazilərində bitki karantinini tənzimləyən qanunvericilik aktlarının surətlərinin mübadiləsini;
- Fitosanitar sertifikatların nümunələrinin mübadiləsini;
- Tərəflərin dövlətlərinin ərazilərində karantin obyektlərinin qeydə alınması və yayılması barədə informasiya mübadiləsini;
- bitki karantini sahəsində olan informasiya və elmi nailiyyətlərin mübadiləsini;
- karantin obyektlərinə qarşı mübarizə aparmaq məqsədilə entomofaqların, biopreparatların, feromonların və digər maddələrin mübadiləsini;
- karantin nəzarətində olan materialların istehsalı və tədarükü yerlərində seçmə yolu ilə yoxlanılmasını təşkil etmək, sərhəd-buraxılış məntəqələrində bitki karantininə aid məsələlərin operativ həlli, eləcə də bitki karantini sahəsində elmi nailiyyətləri və təcrübəni öyrənmək məqsədilə mütəxəssislərin ezam edilməsini və təcrübə mübadiləsini;
- karantin obyektinin yayılması, mənbəyin ləğvi, zərərsizləşdirilməsi və s. tədbirlərin həyata keçirilməsində bir-birinə texniki və məşvərətçi köməyin göstərilməsini;
- Tərəflərdən birinin xahişi ilə fövqəladə hallarda qarşılıqlı təcili tədbirlər görmək məqsədilə bitki karantini sahəsi üzrə mütəxəssislərdən ibarət ekspedisiyaların ezam olunmasına.

Maddə 5

Tərəflər idxalatçı dövlətin qüvvədə olan bitki karantini qanunvericiliyinə uyğun olaraq, ixrac olunan və ya tranzit daşınan karantin nəzarətində olan materiallarla karantin obyektlərinin digər Tərəfin dövlətinin ərazisinə daxil olmasının qarşısını almaq məqsədilə bütün lazımi tədbirlərin görülməsini öhdələrinə götürürlər.

Bir Tərəfin dövlətinin ərazisindən digər Tərəfin dövlətinin ərazisinə gön-dərilən karantin nəzarətində olan materialın hər yük partiyası, ixrac edən ölkənin bitki karantini xidməti tərəfindən verilmiş Fitosanitar sertifikatla müşayiət edilməlidir. Sertifikat karantin nəzarətində olan materialları idxal edən Tərəfin idxal karantin icazəsində qoyulmuş fitosanitar normalarına cavab verməsini təsdiq etməlidir.

Fitosanitar sertifikata və idxal karantin icazəsinə çəkilən xərclər yük sahibi tərəfindən, Tərəflərin ərazilərində qəbul olunmuş tariflər üzrə ödənilməlidir.

Tərəflərin səlahiyyətli orqanları karantin nəzarətində olan materialların ayrı-ayrı yük partiyalarının tədarükü zamanı, belə materialların fitosanitar vəziyyətinə dair əlavə şərtlər qoymaq hüququna malikdirlər.

Göstərilən hallarda, karantin nəzarətində olan materialların ixracı zamanı hər iki Tərəfin karantin müfəttişləri ixrac edən ölkənin ərazisində qabaqca-dan nəzarəti həyata keçirə bilərlər.

Karantin nəzarətində olan hər yük partiyası bir Tərəfin dövlətinin ərazisindən digər Tərəfin dövlətinin ərazisinə tranzitlə daşınarkən, Fitosanitar sertifikatla müşayiət olunmalıdır.

Maddə 6

Tərəflər öz ərazilərində karantin nəzarətində olan materialların idxalı, ixracı və tranzit daşınmaları zamanı, onların yoxlanılmasını aparmaq üçün və karantin obyektlərinin daxil olmasının qarşısını almaq məqsədilə, Tərəflərin milli qanunvericiliyi ilə müəyyən olunmuş dövlət sərhəd-buraxılış məntəqələrini təyin edirlər.

Maddə 7

Karantin nəzarətində olan yüklərin ixracı zamanı qablaşdırıcı material kimi karantin obyektlərinin daşıyıcısı olmayan və torpaqdan azad olan yonqar, taxta kəpəyi, kağız, plastik və digər materiallar istifadə ediləcəkdir. Quru ot, küləş, püfə, yarpaq və başqa bitki mənşəli materiallar isə, Tərəflərin səlahiyyətli orqanlar ilə qabaqcadan razılaşdırılmadan bu məqsədlər üçün istifadə olunmayacaqlar.

Tərəflərin birinin dövlətinin ərazisindən digər Tərəfin dövlətinin ərazisi-nə karantin nəzarətində olan materialların daşınmasında istifadə olunan nəqliyyat vasitələri əsaslı təmizlənməli və lazım gəldikdə zərərsizləşdirilməlidir.

Maddə 8

Tərəflərin səlahiyyətli orqanları dövlət sərhəd-buraxılış məntəqələrində fitosanitar nəzarət zamanı karantin obyektləri aşkar etdikdə, yük sahibinin və-saiti hesabına karantin nəzarətində olan materialı ixracatçıya qaytarmaq, yaxud zərərsizləşdirmək hüququna malikdirlər, əgər yükü zərərsizləşdirməyə, yaxud geri qaytarmağa imkan yoxdursa, Tərəflərin milli qanunvericiliyinə uyğun olaraq məhv edilməli və hər iki halda digər Tərəfin səlahiyyətli orqan-ları bu barədə qabaqcadan məlumatlandırılmalıdır.

Maddə 9

Bu Sazişin həyata keçirilməsində praktiki məsələlərin həlli üçün Tərəflərin səlahiyyətli orqanları, lazım gəldikdə, hər iki dövlətdə növbə ilə birgə müşavirənin keçirilməsini təşkil edirlər.

Bu Sazişin təfsiri və tətbiqi zamanı yaranan mübahisəli məsələlər hər iki Tərəfin razılığı ilə danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilir.

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə, onun ayrılmaz hissəsi olan, müvafiq qaydada rəsmiləşdirilən ayrıca Protokollarla dəyişiklik və əlavələr edilə bilər.

Bu Protokollar bu Sazişin 11 -ci maddəsində göstərilən qaydada qüvvəyə minir.

Maddə 10

Bu Sazişin müddəaları Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə təsir etmir.

Maddə 11

Bu Saziş, Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirmələri barədə sonuncu yazılı bildirişin alındığı tarixdən sonrakı otuzuncu gün qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanır. Tərəflərdən biri müvafiq müddətin bitməsinə altı ay qalmış Sazişi ləğv etmək niyyəti barədə digər Tərəfi yazı-h şəkildə xəbərdar etmədiyi təqdirdə, Sazişin qüvvəsi avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılır.

Bu Saziş Bakı şəhərində 2004-cü il oktyabrın 26-da hər biri Azərbaycan, moldav və rus dillərində iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin müddəalarının təfsirində və tətbiqində fikir ayrılığı yarandıqda, rus dilindəki mətn əsas götürüləcəkdir.

| Azərbaycan Respublikasının<br>Hökuməti adından<br>*(imza)* | Moldova Respublikasının<br>Hökuməti adından<br>*(imza)* |
|---|---|

Azərbaycan Respublikasının Hökuməti ilə Moldova Respublikasının Hökuməti arasında bitkilərin karantini sahəsində əməkdaşlıq haqqında Sazişə
ƏLAVƏ

**Azərbaycan Respublikasının və Moldova Respublikasının ərazisində aşkar olunmayan ziyanvericilərin, bitki xəstəlikləri törədicilərinin və alaq otlarının (karantin obyektlərinin)**

## SİYAHISI

## A 1. AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİSİNDƏ AŞKAR OLUNMAYAN KARANTİN OBYEKTLƏRİ

### Ziyanvericilər

Pantomorus leucoloma Boh.
Agrilus mali Mats.
Rhagoletis romonella Walsh.
Liriomyza trifolii (Burg)
Ceratitis capitata Wied.
Numonia pyrivorella Mats.
Spodoptera litura Farb.
Dacus ciliatus Loew

Tetradacus citri Chen.
Zabrotes subfasciatus Boh.
Anguina tritici (Steinb)
Callosobruchus chinensis L.
Aphelenchoides besseyi Christie
Caulophilus oryzae Gyll
Pectinophora malvella Hb.
Cepoplastes rusci L.
Ditylenchus dipsaci (Kuhn)
Trogoderma granarium Ev.
Ditylenchus destructor Thorne
Phthorimaea operculella Zell.
Meloidogyne chitwoodi Goleen et al.
Aleurocanthus woglumi Ashby
Parasaissetia nigra (Nietner)
Diabrotica virgifera virgifera le Conte
Cacoecimorpha pronubana
Globodera rostochiensis
Conotrachelus nenuphar Herbst
Spodoptera littoralis Boisd.
Thrips palmi Kamy
Bemisia tabaci Gennadius
Pectinophora gossypiella Saund.
Unaspis citri Comst.
Globodera pallida (Stone) Behrens
Carposina niponensis Wlsghm.
Bursaphelenchus xylophilus (Steiner et Buhrer)
Anthonomus grandis Baheman
Unaspis yanonensis Kuw.
Pseudococcus citriculus Green.
Bactrocera cucurbitae (Coguillett)
Lymaiitria dispar L (asian race)
Earias insulana Boisd
Aleurothrixus floccosus Mask
Pseudococcus gahani Green
Popillia yaponica Newm.
Caryedon gonagra 01
Saissetia oleae Bern.
Anarsia lineatella Zeller

## Bitki xəstəliklərinin törədiciləri

Tilletia indica Mitra
Tilletia controversa Kuhn
Xanthomonas oryzae Scumgs et al. pv. oryzicola (Fang et al.) Swings et al.
Xanthomonas oryzae Scumgs et al. pv. oryzae İshiyama) Swings et al.
Xanthomonas camrestris pv. coralina Dye
Phomopsis helianthi Munt - Cvet et al.

Phoma exigua var. Foveata (Foister)
Synchytrium endobioticum (Schilb) Persival
Clavibacter michiganensis subsp.
Sepedonicus (Spieckermaan and Kotthoff)
Davis et al.
Ralstonia solanacearum (Smith) Yabuuchi et al.
Angiosorus solani Thirumulachar et O Brien
Cochliobolus heterostrophus (race T) (= Helmintosporium maydis)
Stenocarpella macrosrora Sutton
Pantoea (= Erwinia) stewartii Smith Dye
Cochliobolus carbonum R.R. Nelson
Pseudomonas caryophylli Burkholder
Phialorhora cinerescens (Wollenweber) van Beyma
Uromices transversalis
Xanthomonas camrestris pv. phaseoli Dye
Deuterophoma tracheirhila Petri
Erwinia amylovora (Burrill) Winslow et al.
Glomerella gossypii Edgerton
Xanthomonas campestris pv. vesicatoria Dye
Didymella chrysanthemi (Tassi) Garibaldi et Gullino
Puccinia horiana P. Hennings
Xanthomonas campestris pv. citri Dye
Elsinoe fawcettii Bitancourt et A.E.Jenkins
Tristeza virus
Cryphonectria parasitica
Phymatotrichopsis omnivora (Duggar) Hennebert
A1aq ot1arı
Cenchrus pauciflorus Benth.
Ambrosia psilostachya D.C.
Solanum carolinense L.
Striga spp.
Iva axillaris Pursh.
Ambrosia trifıda L.
Solanum triflorum Nutt.
Solanum elaeagnifolium Cav.

## A. MOLDOVA RESPUBLİKASININ ƏRAZİSİNDƏ AŞKAR OLUNMAYAN KARANTİN OBYEKTLƏRİ

### A. Ziyanvericilər

Pantonorus leucoloma Boh.
Trogoderma granarium Kv.
Callosobruchus chinensis L.
Ceratitis capitata Wied.
Caulophilus latinasus Say.

Rhagoletis pomonella Welsh.
Grapholita molesta Busck.
Numonia pyrivorella Mate.
Quadraspidiotus perniciosus Comst.
Phtorimea operculella Zell.
Carposina nironensis
Pseudaulacaspis pentagona Targ.
Pseudococcus comstocki Kuw.
Callosobruchus maculatus F.
Agrillus mali Mats.
Popillia yaponica New.
Aonodoella aurantii Mask.
Lymantria dispar L.
Sinixylon conogerum Gerst.
Dinoderus bifoveolatus Woll.
Caryedon gonarga L.
Zabrotes subfasciatus Boh.
Bruchidius incarnatus Boh.
Callosobruchus sp.
Liriomysa trifolii Burgess.
Scrobipalpopasis solanifora Pav.
Paralipsa gularis Zell.
Phthorimaea lycopersicella Busch.
Spodoptera litura Fabr.
Diabrotica virgifera Le Conte.

## Bitki xəstəliklərinin törədiciləri

Tilleletia (Neovossia) indica Mitra.
Phimatotrichus omnivorum (Schear)Duggar
Didymella chrysanthemi (Tassi) Gar et Gill
Puccinia horiana P.Henn.
Synchytriun endobioticum (Schilb)Persival.
Cochhlioborus heteroustrophus Dr.
Angiosorus solani Thium.
Diarorthe phaseolorum var. Caulivora (Ath.et Caid.)
Phomopsis viticola Sacc.
Phialophora cineresscens (Wr.) Van Bryma.
Ervinia amylovora (Burill) Winslow et al.
Erwinia stewartii (Smith) Dye.
Xanhomonas ampelinae
Clavibacter tritici (Carlos Vid)
Globodera pallida (Stone) Behrens.
Globodera rostochiensis (Woll) M.et.
Grapevine flavescence dorre MLO.
American plum line pattern virus
Peach latent mosaic viroid

## Alaq   otları

Iva axillaris Pursh.
Solanum elaeagnifolium Cav.
Helianthus californicus D.C.
Helianthus ciliaris D.C.
Striga sp
Ambrosia artimisiifolia L.
Ambrosia trifida L.
Ambrosia psilostachya D.C.
Acroptilon repens D.C.
Solanum rostratum Dun.
Solanum triflorum Nutt.
Solanum carolinense L.
Cuscuta sp.sp.
Cenchrus payciflorus Benth.
Croton capitatus Michx.
Euphorbia marginata Michx.
Euphorbia dentata Michhx.